**Yaşar Əzimağa oğlu Məmmədov**

**UOT: 338; JEL: G29.**

# Azərbaycanda audit xidmətinin sahibkarlığın inkişafina təsiri

***Xülasə***

*Məqalədə Azərbaycanda audit xidmətinin müasir vəziyyəti və onun sahibkarlığın inkişafina təsiri məsələlərinə baxılır. Audit xidmətinin sahibkarlığın inkişafindakı rolu və bu istiqamətdə yaradılan mühit dəyərləndirilir. Həmçinin, iqtisadiyyat və özəl sektorunun inkişafi ilə audit xidmətinin inkişafi arasındakı bağlılıq tədqiq olunur. Audit xidmətinin müasir inkişaf meyilləri və xüsusiyyətləri qiymətləndirilir və bu xidmətin inkişafi ilə bağlı fikirlər irəli sürülür.*

**Açar sözlər:** audit, iqtisadiyyat sahələri, xidmət bazarı, iqtisadi göstəricilər

## Giriş

Azərbaycanda bazar münasibətlərinin inkişafı istiqamətində həyata keçirilən silsilə və davamlı islahatlar sahibkarlıq fəaliyyətinin inkişafı üçün yeni əlverişli mühit yaratmaqdadır. Xüsusilə də ölkədə sosial-iqtisadi vəziyyət sabitləşdikcə, iqtisadi inkişafda müsbət yönümlü dəyişikliklər müşahidə olunduqca insanların sahibkarlıq fəaliyyətinə münasibəti də dəyişməkdədir. İqtisadi inkişafda əldə olunan müsbət nəticələr və həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar öz dərinləşməsi ilə də müşahidə edilir. Bu amil həm də audit sisteminin müasir tələblər baxımından təşkilinə və onun özəl sektorun inkişafına faydalığı baxımından da yüksək qiymətləndirilməlidir.

## Audit xidmətinin sahibkarlıq fəaliyyətinin inkişafı baxımından əhəmiyyəti



Sahibkarlığın müasir inkişafı onun infrastruktur sahələrinin təkmilləşməsini də gündəmə gətirməkdədir. İqtisadiyyatın və milli sahibkarlığın inkişafında digər sahələrlə yanaşı, audit sisteminin və audit xidmətinin rolu da əvəzsizdir. Belə ki, audit xidmətinin özü də həm də sahibakrlıq fəaliyyətinin bir növü kimi səciyyələnməklə yanaşı, ümumilikdə iqtisadi inkişaf proseslərinin və sahibkarlıq fəaliyyətinin müasir tələblər baxımından təşkilinə, inkişafına və ölkədə şəffaf informasiya mühitinin yaradılmasına xidmət edır. Audit xidmətinin təşkili və tənzimlənməsi yalnız auditor xidməti haqqında qanunun ilə bağlı olmayıb, digər qanunvericilik sənədlərində də (xarici investisiyanm qorunması, mühasibat uçotu, maliyyə-sənaye qrupları, bank, sığorta fəaliyyəti haqqında və s.) zəruri müddəalar öz əksini tapmaqdadır. Maliyyə şəffaflığı iqtisadi cinayətkarlıq və korrupsiya probleminin aradan qaldırılmasmda önəmli rol oynayır. Bu isə auditə, auditor xidmətinə geniş ictimai tələbat yaradır [7, s.46]. Müasir audit sivil və səmərəli maliyyə nəzarəti olmaqla yanaşı, həm də:

- sahibkarlıq subyektlərinin maliyyə sisteminin sabitliyinin möhkəmləndirilməsində;
- bu sektorun biznes-inkişaf planlarının hazırlanmasında;
- ölkədə maliyyə intizamının təmin olunmasında;
- yerli, regional və dünya bazarlarının tədqiqində də xüsusi əhəmiyyət kəsb edir.

Sahibkarlıq subyektlərinin səmərəli idarə olunmasnın təşkilinə, onun fəaliyyətinin tənzimlənməsinə müsbət baxımdan təsir edən audit xidməti, bu subyektlərin maliyyə vəziyyətinin mövcud durumunu və inkişaf perspektivlərini qiymətləndirərək bu istiqamətdə öz əhəmiyyət kəsb edən rəyini ifadə edir. Təcrübə göstərir ki, təsərrüfat subyektlərinın inkişafı öz problemləri ilə də nəzərə çarpır. Həmin subyektlərin fəaliyyətində daxili və xarici amilərin təsiri nəticəsində bir çox problemlər yaranır və bütün bunlar çox vaxt fəaliyyətdə böhranlı halların yaranmasma təkan verir [9, s.27]. Eyni zamanda, bazar iqtisadiyyatnın təbiətinə uyğun olaraq sahibkarlıq subyektlərinin fəaliyyəti risksiz də mümkün olmur. Bütün

©Yaşar Əzimağa oğlu Məmmədov i.f.d., dos.AMEA İqtisadiyyat İnstitutu
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

bu kimi mühüm amillərin tədqiqi və onların aradan qaldırılması prosesində auditorlar sahibkarlara daha geniş müstəvidə köməklik göstərib, zəruri təkliflər hazırlayır, düzgün və məqsədəuyğun idarəetmə qərarlarının qəbuluna təsir edirlər.

**Sahibkarlıq sektorunun inkişafı ilə audit xidmətinin inkişafı arasında bağlılıq**

Azərbaycanda audit xidmətinin inkişafı bu xidmətin növlərinin də inkişafını zəruriləşdirməkdədir. Belə ki, ölkədə fəaliyyət göstərən müxtəlif təsərrüfat subyektləri və təşkilatların müxtəlif yönümlü audit xidmətlərindən bəhrələnmək imkanları olmalıdır. Ölkədə 1996-2018-ci illər ərzində göstərilmiş audit xidməti növlərinin 75 faizini hesabat dövrünün auditi, 4 faizini əmlakın qiymətləndirilməsinin düzgünlüyünə rəyin verilməsi, 2 faizini mühasibat uçotunun qurulması, 19 faizini isə digər audit xidməti növləri təşkil etmişdir. Cari hesabat dövrü auditinin audit xidmətlərində yüksək paya malik olmasının əsas səbəbi bir çox təsərrüfat subyektləri və təşkilatlarının mövcud qanunvericilik üzrə öz maliyyə hesabatlarını məcburi qaydada auditor rəyi ilə təsdiq etdirməsidir [5; 10]. Qeyd etmək lazımdır ki, ölkədə belə təsdiqedici audit xidmət növü (icbari audit) geniş inkişaf etmiş və bu hal MDB ölkələrinin audit xidməti bazarında da müşhaidə edilməkdədir.

Audit rəylərinin təhlili ölkədə audit xidmətinin bir çox zəruri növlərinin inkişafını labüdləşdirir. Belə xidmət növlərinə təsərrüfat subyektinin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili, maliyyə vəziyyətinin qiymətləndirilməsi, məsləhət xidmətlərinin göstərilməsi kimi xidmətlər aid edilə bilər. Auditor rəyi informasiya istifadəçilərində təsərrüfat fəaliyyəti haqqında daha dəqiq və mükəmməl fıkır formalaşdırmalı, auditin nəticələri isə sifarişçi subyektin inkişafının zəif yerlərini əks etdırməklə yanaşı, fəaliyyətinin təkmilləşdirilməsi və səmərəli təşkili üzrə təklif və tövsiyələri əhatə etməlidir. Ölkədə audit sisteminin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər müasir tələblər nəzərə almmaqla daha da genişləndirilməli, bu proses Azərbaycanda tam şəkildə bazar infrastrukturunun formalaşmasma yönəldilməlidir. Müasir şəraitdə audit sistemi bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinin fəaliyyətinin səmərəliliyinin artırılmasmda xüsusi əhəmiyyət kəsb edən amilə çevrilməkdədir. Auditin inkişafı müəssiənin təsisçilərinin, səhmdarlarının və idarəetmə strukturlarının maraqlarının təmin edilməsi ilə bağlıdır. Audit xidmətinin inkişafına olan tələbat aşağıdakı zəruri amillərlə izah oluna bilər: 

- rəhbərlik və maliyyə-uçot hesabatlarını tərtib edən mütəxəssislər tərəfindən qeyri-obyektivliyə yol verilmə ehtimalı;
- idarəetmə sahələrində qəbul olunan qərarların nəticəsinin məlumatların keyfiyyətindən asılılığı;
- təsərrüfat fəaliyyəti ilə bağlı informasiyaların yoxlanılması üçün xüsusi biliklərin zəruriliyi;
- informasiya istifadəçilərinin məlumatların keyfiyyətinin qiymətləndirilməsi üçün əlyetərliyinin olmaması.

Qeyd etmək lazımdır ki, hesabat məlumatlarının dürüstlüyü kapital bazarının səmərəliliyini artırmaqla yanaşı, müxtəlif iqtisadi qərarların nəticələrinin qiymətləndirilməsi və proqnozlaşdırmasına şərait yaradır. Bu baxımdan, dövri olaraq (ən azı ildə bir dəfə) audit yoxlamasının aparılması məcburi olmadığı halda da çox əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, bazar iqtisadiyyatı şəraitində müəssisələr, kredit təşkilatları, digər təsərrüfat subyektləri əmlakın və pul vəsaitlərinin istifadəsi, kommersiya əməliyyatları, investisiya fəaliyyəti üzrə bir-biri ilə münasibətdə olurlar. Bütün iştirakçılar üçün bu münasibətlər maliyyə-təsərrüfat fəaliyyəti haqqında etibarlı məlumat əldə etməklə möhkəmlənməlidir. Təcrübə də göstərir ki, bütün bu tip məlumatların etibarlılığı isə müstəqil auditorlar tərəfindən təsdiq olunmalıdır. Auditin araşdırmasında əsas məqsəd yalnız müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılaraq çatışmazlıqların aşkarlanmasından, hesabat

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

göstəricilərinin təsdiqindən ibarət deyil, həm də mövcud çatışmazlıqların aradan qaldırılması və müəssisənin fəaliyyətinin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr verməkdən də ibarət olmalıdır.

**Audit xidmətinin müasir inkişaf xüsusiyyətləri**

Azərbaycanda son on ildə audit xidmətinin inkişafı sahəsində bir çox müsbət irəliləyişlər nəzərə çarpmaqdadır. Göstərmək lazımdır ki, 2010-cu illə müqayisədə 2018-ci ildə audit xidməti üzrə icra olunan müqavilələrin sayı 1,4 dəfə artmaqla 3943-ə çatmışdır. Müqayisə edilən müddət ərzində ölkədə göstərilən audit xidmətlərinin həcmi də öz inkişaf səviyyəsi ilə müşahidə edilir. 2010-cu illə müqayisədə 2018-ci ildə audit xidmətlərinin həcmi 2,3 dəfə artmaqla 59 milyon manat təşkil etmişdir [5; 10].

**Diaqram 1.**

**Azərbaycanda audit xidmətinin həcminin inkişaf dinamikası (milyon manat).**




Mənbə: Diaqram 5; 10 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.



Audit xidmətlərinin həcminin artması bu sahədə fəaliyyət göstərən hüquqi (audit təşkilatları) və fiziki şəxslərin (sərbəst auditor) sayının artması ilə də özünü göstərir. Belə ki, fəaliyyət göstərən audit təşkilatlarının sayı 2010-cu illə müqayisədə 2018-ci ildə 2,5 dəfə, sərbəst auditorların sayı isə 1,5 dəfə artmışdır [5; 10]. Belə artım həm milli audit təşkilatlarının və sərbəst auditorların, həm də xarici audit təşkilatlarının hesabına baş vermişdir. Qeyd etmək lazımdır ki, 2010-cu ildə xarici audit təşkilatları xidmət bazarında fəaliyyət göstərən ümumi audit qurumlarının 8%-ni, sərbəst auditorlar 46%-ni, yerli auditor təşkilatları 46%-ni təşkil etdiyi halda, 2018-ci ildə bu göstərici bu şəkildə dəyişmişdir: xarici audit təşkilatları 14%, sərbəst auditorlar 32%, milli audit təşkilatları 54%.

**Qrafik 1.**

**Audit xidmətini həyata keçirən hüquqi və fiziki şəxslərin inkişaf dinamikası.**




Mənbə: Qrafik 5; 10 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycanın audit xidməti bazarında bir mühüm məqam daha çox müşahidə olunmaqdadır. Belə ki, bu məqam - audit xidməti bazarının təşəkkül tapdığı dövrdən hazıradək xarici audit təşkilatlarının bazarda malik olduğu üstün və güclü mövqeyi ilə bağlıdır. Audit xidməti bazarında fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin fəaliyyət səviyyəsini və onların inkişafını eyni baxımdan qiymətləndirmək mümkün deyildir. Xüsusilə də, yerli və xarici audit təşkilatları və sərbəst auditorlar arasında baş verən rəqabətdə xarici audit təşkilatlarının mövqeyi daim yüksək olur. Həmçinin, başqa bir vacib məqam da diqqəti cəlb edir: xarici audit təşkilatlarının bağladığı müqavilələrin sayı az olsada, lakin onların müqavilə məbləğləri və buna uyğun olaraq da göstərdikləri xidmətlərin həcmi çox yüksək səviyyəsi ilə nəzərə çarpır [6; 8].

Audit xidmətinin inkişafı və onun səmərəliliyinin artması vergi cinayətlərinin azalması ilə də müşahidə olunmalıdır. Təcrübə göstərir ki, iqtisadi cinayətkarlıq hallarında daha çox vergidən yayınmalar və digər bu yönümlü cinayət halları tez-tez və daha çox təsadüf olunur. Auditin başlıca vəzifələrindən biri də belə hallarla bağlı öz rəy və hesabatlarında şəffaf münasibət bildirməsidir. Bununla yanaşı, rəsmi mənbələrə görə ölkədə vergi cinayətlərinin tərkibində iqtisadi cinayətkarlıqla bağlı hallar hələ də yüksək olaraq qalmaqdadır. Qeyd etmək lazımdır ki, 2010-cu illə müqayisədə 2017-ci ildə qeydə alınmış iqtisadi cinayətlərdə vergidən yayınma hallarının səviyyəsi 1,3 dəfə azalsa da, lakin onların bu iqtisadi cinayətlərin xüsusi çəkisindəki payı - 50%-ə yaxındır [11; 12; 13].

**Qrafik 2.**

**İqtisadi cinayətlərdə vergi cinayətlərinin payı (%).**




Mənbə: Qrafik 11; 12; 13 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Audit xidmətinin səmərəliliyi və faydası bu xidmət sahəsinin ölkənin əsas makroiqtisadi göstəricilərindən biri olan ÜDM-in yaradılmasında iştirak səviyyəsi ilə bağlıdır. iştirak səviyyəsinin müəyyən olunması ilə bağlı olmalıdır. Ölkədə ÜDM-in formalaşmasında xidmət sahələrinin payı qaneeici səviyyədə olması ilə də qiymətləndirilə bilər. Belə ki, ÜDM-dəki payına görə xidmət sahələrinin xüsusi çəkisini belə şəkildə göstərmək mümkündür: ticarət - 10%, nəqliyyat - 6,7%, turizm və ictimai iaşə sektoru - 2,4%, informasiya və rabitə xidmətləri - 1,8%, maliyyə və sığorta xidmətləri - 2,6%, əhaliyə göstərilən xidmətlər - 2,7% və audit xidməti – 0,001%. Göründüyü kimi Xidmət sahələri arasında ÜDM-dəki xüsusi çəkisinə görə ən aşağı göstərici ilə audit xidməti fərqlənir [5; 10; 13]. Audit ölkədə göstərilən ödənişli xidmətlərin tərkibində də ən aşağı göstərici ilə nəzərə çarpır. Ödənişli xidmətlərin tərkibində audit xidmətinin payı – 0,01% təşkil edir ki, bu da xidmət sektorunda auditin hələ ki, yüksək inkişaf səviyyəsində olmadığını göstərir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Qrafik 3.**

**Xidmət sahələrinin ÜDM-in yaradılmasındakı payı (%).**




Mənbə: Qrafik 5; 10; 13 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Tədqiqatlar göstərir ki, əhalinin hər nəfərinə düşən ödənişli xidmətlərin həcmi göstəricisinə görə də audit xidməti öz zəif mövqeyi ilə fərqlənir. Belə ki, əhalinin hər nəfərinə düşən audit xidmətlərinin həcmi 5,9 manat təşkil edir və göstərmək lazımdır ki, bu sırada idman və bədən tərbiyyəsi xidmətlərinin həcmi belə audit xidmətlərindən 1,4 dəfə yüksək olması ilə müşahidə edilir. Ölkə əhalisinin audit xidmətləri haqqındakı bilikləri və bu sahəyə müraciətləri də müsbət qiymətləndirilə bilməz. Çünki, bu sahənin fəaliyyət göstərdiyi müddət ərzində audit xidmətlərinin əhalinin gəlirlərindəki payı - 0,001% -dən də azdır [5; 10; 13]. Bütün bu kimi hallar göstərir ki, audit xidməti ölkədə kifayət qədər inkişaf səviyyəsinə malik deyildir. Həmçinin, o ölkənin iqtisadi inkişafında nəzərəçarpacaq polu ilə də diqqəti cəlb etmir. Digər bir mühüm iqtisadi göstərici kimi ölkədə kapital-investisiya qoyuluşlarındakı auditin iştirak səviyyəsinin qiymətləndirilməsi də qaneedici fikir formalaşdırmağa əsas vermir. Tədqiqatlar göstərir ki, auditin Azərbaycanda inkişaf etdiyi kifayət qədər dövr ərzində əsas kapitala investisiya qoyuluşlarında audit xidmətinin payı - 0,002% səviyyəsini keçməyir. Belə vəziyyət isə, bu mühüm sahədə olan göstəricilərin şəffaflığı və düzgünlüyü ilə bağlı fikirlərin obyektivliyinə kölgə salır.

Azərbaycanda müəssisə və təsərrüfat subyektlərinin audit xidmətləri ilə əhatə olunmasının aşağı səviyyəsini digər bir faktla da sübut etmək mümkündür. Belə ki, bir özəl müəssisəyə düşən audit xidmətlərinin həcmi 393 manat təşkil etdiyi halda, bu göstərici bir kiçik müəssisə üzrə - 434 manat, bir dövlət müəssisəsi üzrə - 4163 manat, bir fərdi sahibkar üzrə - 54 manat səviyyəsindədir [5; 10; 13].

Ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərinin audit xidməti ilə əhatə olunma səviyyəsini də yüksək baxımdan qiymətləndirmək mümkün deyildir. Belə ki, fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin audit xidməti ilə əhatə olunma səviyyəsi çox aşağıdır. Bu amil həm də ölkədə fəaliyyət göstərən sərbəst auditor və audit təşkilatlarının sayının az olması ilə də bağlı qəbul oluna bilər. Həmçinin, bu xidmətdən istifadə səviyyəsinin yüksək olmaması iqtisadiyyat sahələrinin və özəl sektorun bu xidmətlə əhatə olunma səviyyəsinin aşağı olmasına səbəb olmaqdadır. Belə ki, bir özəl müəssisənin auditlə əhatə olunma səviyyəsi - 0,001% təşkil etdiyi halda, bu göstərici bir kiçik müəssisə üzrə - 0,001%, bir dövlət müəssisəsi üzrə - 0,012%, sahibkarlıq fəaliyyəti ilə məşğul olan bir fərdi şəxs üzrə - 0,0001% səviyyəsindədir [5; 10; 13].

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Qrafik 4.**

**Müəssisə və təsərrüfat subyektlərinə düşən audit xidmətinin həcmi (manat).**




Mənbə: Qrafik 5; 10; 13 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

**Nəticə**

Audit xidmətinin ölkədə təşkili və tənzimlənməsi sahəsində nəzərəçarpacaq işlər görülmüşdür. Lakin, bütün bu müsbət cəhətlərlə yanaşı, ölkədə auditin inkişafı sahəsində öz həllini gözləyən kifayətqədər problemlər qalmaqdadır. Audit xidmətinin inkişafı üçün zəruri hüquqi və iqtisadi mühitin yaradılmasına baxmayaraq, xidmətin inkişafına və bu sahədə olan göstəricilərin artırılmasına ehtiyac vardır. Xüsusilə də audit xidmətinin sahibaklıq sektorunun inkişafındakı rolunun artırılması və bu sahədə göstərilən xidmətlərinin çeşidinin genişləndirilməsi vacib hesab edilməlidir.



**Ədəbiyyat**

1. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası". Bakı, 2012.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016.
3. "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020-ci illər). Bakı, 2012.
4. Azərbaycan Respublikasının Auditorlar Palatası və AMEA İqtisadiyyat İnstitutu tərəfindən "Azərbaycanda auditor xidmətinin müasir vəziyyəti və inkişaf istiqamətləri" mövzusunda keçirilmiş sorğunun nəticələrinə dair icmal-təhlil. Bakı, 2019.
5. Auditorlar Palatasının hesabatları. Bakı, 2010-2019.
6. Məmmədov Y. Azərbaycanda bazar münasibətləri şəraitində auditor xidmətinin təsərrüfat subyektlərində təşkili xüsusiyyətləri. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, İqtisadi İslahatlar Mərkəzi. Elmi əsərlər toplusu, V buraxılış, səh.279-290. Bakı, 2004.
7. Yaşar Əzimağa oğlu Məmmədov. Azərbaycan Respublikasında auditor xidmətinin formalaşması və inkişaf perspektivləri. Monoqrafiya. Bakı, "Elm" nəşriyyatı, 2006.
8. Yaşar Əzimağa oğlu Məmmədov. Azərbaycanda auditor xidmətinin müasir inkişaf vəziyyətinin qiymətləndirilməsi. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat seriyası, №4, 2011.

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

9. Yaşar Əzimağa oğlu Məmmədov. Rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına auditin təsiri. AMEA İqtisadiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunan kitab. Bakı, "Avrora" mətbəəsi, 2011.
10. http://www.audit.gov.az
11. www.taxes.gov.az/
12. http://vergiler.az/art-view/3283/.
13. https:www.stat.gov.az

***Яшар Азимага оглу Мамедов***

***Влияние аудиторской службы на развитие предпринимательства в Азербайджане***

***Резюме***

*В статье рассматриваются вопросы современного состояния аудиторской службы в Азербайджане и ее влияния на развитие предпринимательства. Оценивается роль аудиторской службы в развитии предпринимательства и среда, созданная в этом направлении. Также изучается взаимосвязь между развитием экономики и частного сектора и развитием аудиторской службы. Оцениваются современные тенденции развития и особенности аудиторской службы, выдвигаются мнения о развитии данной услуги.*

***Ключевые слова:*** *аудит, сферы экономики, рынок услуг, экономические показатели*

***Yashar Azimagha Mammadov***

***Impact of audit service on entrepreneurship development in Azerbaijan***

***Summary***



*The article discusses the current state of the audit Service in Azerbaijan and its impact on the development of entrepreneurship. The role of Audit services in the development of entrepreneurship and the environment created in this direction are evaluated. It also examines the link between the development of the economy and the private sector and the development of the audit Service. The modern development trends and features of the Audit Service are evaluated and opinions are put forward on the development of this service.*

***Keywords:*** *audit, economic sectors, service market, economic indicators*

***Elmi redaktor: i.f.d., dos. M.Zeynalov***
***Daxil olub: 11.03.2020.***
***Çapa qəbul olunub: 16.03.2020.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*